*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 2 mart 2016-cı il № 16 (2031) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Komitə sədri Rəşad Mahmud Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Siyasi, mədəni və dini əlaqələrimizin qədim tarixə malik olduğunu vurğulayan qonaq ölkələrimizin ən çətin vaxtlarda həmişə bir-birinin yanında olduğunu bildirdi. Rəşad Mahmud dedi: "Cənab Prezident, biz bu əlaqələrin inkişaf etdirilməsini həmişə arzulamışıq, Azərbaycan bizim ürəyimizdə yaşayır, biz bunu hər zaman sübut etmişik". Pakistanlı qonaq ölkəmizə səfəri çərçivəsində azərbaycanlı həmkarları ilə səmərəli qarşılıqlı təmasların olacağına əminliyini bildirdi.

Prezident İlham Əliyev Pakistan Prezidenti Məmnun Hüseynin ölkəmizə uğurlu rəsmi səfərini, həmçinin Baş nazir Məhəmməd Nəvaz Şəriflə bu yaxınlarda Davosda keçirdiyi görüşü məmnunluqla xatırladı. Dövlətimizin başçısı ölkələrimiz arasında tarixi köklərə malik olan ikitərəfli münasibətlərimizin hazırda çox uğurla inkişaf etdiyini vurğuladı, Azərbaycan ilə Pakistanın beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizin Pakistan ilə bütün sahələri əhatə edəcək ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, mədəni, hərbi və digər sahələrdə daha da inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızın daha da möhkəmləndirilməsi ilə bağlı müzakirələrin aparılacağına və ikitərəfli əlaqələrimizin genişləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi baxımından uğurlu olacağına əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Pakistan Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan dövlətinin başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Azərbaycan-Pakistan əlaqələrinin daha da genişləndirilməsi məsələləri müzakirə edilib

***Martın 1-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Rəşad Mahmudun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Pakistan arasında tarixən mövcud olan ənənəvi dostluq münasibətlərinin müasir dövrdə çox uğurla inkişaf etdiyi xatırlanaraq, siyasi, iqtisadi, mədəni sahələrdə strateji tərəfdaşlığımızın səmərəli nəticələr verdiyi məmnunluqla qeyd olunub.

Bu baxımdan hərbi sahədə də əməkdaşlığın dərinləşdirilməsinin, hərbi-sənaye və kadr potensialının mövcud imkanlarından səmərəli istifadə etməklə mütəmadi görüşlərin, təlimlərin və təcrübə mübadilələrinin keçirilməsinin zəruriliyi bildirilib.

Söhbət zamanı dünyada gedən qlobal proseslər fonunda regionun sabitliyi üçün ciddi təhlükə olan Ermənistanın təcavüzkar siyasəti qətiyyətlə pislənilib və Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində ədalətsizliyin aradan qaldırılaraq münaqişənin hüquq normaları çərçivəsində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyi vurğulanıb.

Bütün beynəlxalq tədbirlərdə ölkələrimizin bir-birinə dəstək verdiyini məmnunluqla xatırladan qonaq Pakistan dövlətinin və xalqının bundan sonra da daim işğalın aradan qaldırılması naminə dost, qardaş Azərbaycanın yanında olacağını nəzərə çatdırıb.

Görüşdə qarşılıqlı faydalı əlaqələrimizin daha da genişləndirilməsinə və hərbi əməkdaşlığımızın məqsədyönlü inkişaf etdirilməsinə dair bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



“Yurdumu qorumaq şərəf borcumdur”

2-ci səhifədə



Birinci mərhələnin qalibləri

3-cü səhifədə



Şəhidlik vətənpərvərlik nümunəsidir

4-cü səhifədə




Mübarizin qəhrəmanlığı bizə örnəkdir

5-ci səhifədə

# Müdafiə naziri Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri ilə görüşüb





***Martın 1-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Rəşad Mahmud ilə görüşüb.***

General R.Mahmudun rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himni səsləndirilib və protokola uyğun olaraq "Şərəf Kitabı" imzalanıb.

Azərbaycanın Müdafiə naziri ilə Pakistan Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri arasında əvvəl təkbətək, sonra isə geniş tərkibdə görüş keçirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq ölkələrimiz arasında ənənəvi mehriban dostluq və qardaşlıq münasibətlərinin, strateji tərəfdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri ölkəmizin müharibədən əziyyət çəkməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verərək Pakistanın Azərbaycanın mövqeyini beynəlxalq təşkilatlarda dəstəkləməklə xalqımızın haqq işinə kömək etməsinə hazır olmasını xüsusi qeyd edib.

General-polkovnik Zakir Həsənov Pakistan ilə təhlükəsizlik, müdafiə, hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın inkişafının vacibliyi, əlaqələrin daha da dərinləşdirilməsi və ekspert qrupları səviyyəsində qarşılıqlı səfərlərin təşkil edilməsi barədə fikirlərini də diqqətə çatdırıb.

Ölkəmizə səfərdən məmnunluğunu ifadə edən general R.Mahmud Azərbaycan-Pakistan münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

Tərəflər Azərbaycan ilə Pakistan arasında döyüş hazırlığı, birgə təlimlərin keçirilməsi, terrorizmə qarşı mübarizədə müştərək əməkdaşlığın, eləcə də hər iki ölkənin Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri arasında əlaqələrin artırılmasının vacibliyini də xüsusi vurğulayıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
fotolar
çavuş
Vüsal HƏMİDOVUNDUR**

*Ön xətdən reportaj*

# “Yurdumu qorumaq şərəf borcumdur”

***Hər dəfə cəbhə bölgəsinə ezamiyyətə gedəndə ilk olaraq səngərlərə üz tutur, yurdumuzu qoruyan zabit və əsgərlərlə görüşürük. Vətənimizin keşiyini çəkən bu oğulların cəsur çöhrəsini gördükcə ürəyimiz dağa dönür. Çünki onlar mövqelərimizə hücum etmək istəyən erməni işğalçılarını dəqiq atəş zərbələri ilə susdurub geri oturdurlar. Hər gün həm televiziya ekranlarından, həm də mətbuat səhifələrindən hərbçilərimizin uğurlarını eşidirik və sevinirik.***



Budur, yenə də ön xətdəyik. Vaxt itirmədən səngərlərə - torpaqlarımızın müdafiəsində dayanan hərbçilərin yanına gedirik. Səngərdə bizi qarşılayan zabit Aqil Əsgərov bildirdi ki, erməni qəsbkarlarının atəş nöqtələri vaxtında və dəqiq susdurulur. Əsgərlərdən Telman Quluyev, Elvin Məmmədov, Eşqin Heydərov, Alik Qəhrəmanov və başqaları üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.

Erməni işğalçıları ağır zərbə alıb geri çəkilirlər. Düşmən hiss edir ki, qarşısında güclü, məğlubedilməz bir qüvvə dayanıb.

Döyüşçülərimizin qazandığı uğurlardan söhbət edə-edə səngər boyu irəli gedirik. Şəxsi heyət mövqelərində sərvaxt dayanıb müşahidə aparır. Əsgərlərdən birinə yaxınlaşıb tanış oluram. Öyrənirəm ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Alik Qəhrəmanov Qəbələ rayonunda dünyaya göz açıb. Müharibə veteranıdır. Ağdərə və Füzuli uğrunda gedən döyüşlərdə həmişə öndə vuruşub. Döyüşlər zamanı üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib.

- 1993-cü ildən başlanan döyüş yolum davam edir, - deyir Alik Qəhrəmanov. - Xeyli müddətdir yurdumuzu erməni işğalçılarından müdafiə edirəm. Hər döyüş əmrini peşəkarlıqla yerinə yetirməyə çalışıram. Yurdumu qorumaq şərəf borcumdur. Bu borcu ləyaqətlə yerinə yetirməyə səy göstərirəm. Öz vərdişlərimi gənc əsgərlərə də öyrədirəm.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu",
foto müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 135 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Novruzlu, Cəvahirli, Sarıcalı, Şuraabad, Kəngərli, Qaraqaşlı, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 136 dəfə atəş zərbəsi endirib.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq martın 2-də Ağdam rayonu ərazisindəki qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Peter Svedberq və Saymon Tiller keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Yevgeni Şarov keçirəcəklər.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Birinci mərhələnin qalibləri



***Peşəsindən asılı olmayaraq hər bir hərbi qulluqçu yiyələndiyi sahəni mükəmməl bilməlidir. Bu xidmətdə uğur qazanmağın ən ümdə yoludur. Silahlı Qüvvələrimizdə, demək olar ki, bütün ixtisaslar üzrə qalibləri müəyyən etmək üçün birinciliklər keçirilir. Bu günlərdə birlik və birləşmələrdə "ən yaxşı tank heyəti" uğrunda keçirilən mübarizə başa çatıb. Polkovnik Valeh Rəcəbov bildirdi ki, birlik üzrə birinci və ikinci yer tutan tank heyətləri indi də Silahlı Qüvvələr üzrə keçiriləcək yarışa hazırlaşır. Qalib gələn heyətlə görüşüb onların fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə tankçıların yanına gəldik.***

- Tankçılar poliqondan yeni qayıdıblar, - deyə mayor Səxavət Baxışov sözə başlayır. - Başlıca məqsədimiz bütün heyətlərin döyüş hazırlığının yüksəldilməsidir. Bunun üçün daim çalışırıq. Nəticəsi də göz qabağındadır. Tabeliyimdə olan tank heyəti yarışmanın qalibi olub. Bu üzərimizə düşən məsuliyyəti daha da artırır.

Peşəkar tankçı onun komandiri olduğu bölmədə xidmət edən hər bir tank heyətinin döyüş hazırlığından razı idi. O, dəfələrlə cəmləşmə rayonundan əsas və ehtiyat çıxışlarına müəyyən edilən vaxtda çatdıqlarını və təlimatış tapşırıqlarını vaxtında icra etdiklərini dedi.

Zabit Anar Əliyevlə tank heyətinin xidmət yerinə gəldim. Zabit bildirdi ki, yarışa qatılan heyətlər fiziki hazırlıqdan normativlər yerinə yetirməlidir. Bundan başqa taktiki, atəş, ixtisas hazırlıqları üzrə bilik və bacarıqlar nümayiş etdiriləcək. Qeyd olunan bütün bu vərdişlər heyətlərdə yüksək səviyyədə cəmlənməlidir.

Heyət komandiri gizir Rusif Mehdiyev altı il öncə Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirib. Bərdə rayonundan olan tankçı ilk gündən bu hərbi hissədə xidmətə başladığını dedi. Həmişə işinə məsuliyyətlə yanaşmaq onun intizamlı olmasından irəli gəlir. Xidmət dövründə ilk dəfədir komandiri olduğu heyət yarışın qalibi olub. Buna görə o, məmnun görünürdü.

Heyətin əsas üzvlərindən biri də tuşlayıcıdır. Komandirin verdiyi komandanı vaxtında və dəqiq icra edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elşən Zeynalov bir ildən artıqdır ki, xidmət edir. Tankçı olmaq onun hələ kiçik yaşlarından arzusu olub. Atası Adil də doğma Goranboyun özünümüdafiə batalyonunda erməni qəsbkarlarına qarşı döyüşüb. Elşən hələ balaca olanda atasını döyüşçü libasında görüb, döyüş epizodlarını maraqla dinləyib. Qərara gəlib ki, böyüyəndə atası kimi döyüşçü olsun.



Deyirlər, hər kəsin həyatda mütləq bir idealı olmalıdır. Elşən də atasını özünə ideal seçib. Bölük komandiri zabit Şəhriyar Quliyev də Elşənin xidmətindən razılıq edir. Deyir ki, Elşən bütün xüsusiyyətlərinə görə nümunəvi hərbçidir.

Mexanik-sürücü Bəxtiyar Hüseynov da təcrübəli döyüşçüdür, üç ildən artıqdır ki, "dəmir at"ı idarə edir. Bu müddət ərzində dəfələrlə təlim-məşqlərdə olub. Hacıqabul rayonundan olan mexanik-sürücünün bacarığı sayəsində heyət bütün tapşırıqları daim vaxtında yerinə yetirib.

Tankçılara qarşıdakı yarışlarda da uğurlar arzulayırıq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# "Vətəni qorumaq amalımızdır"

***Fevralın 14-də keçirilən andiçmə mərasimində əsgər atası Məmiş Allahyarovla həmsöhbət olduq. Söhbətimiz zamanı qəzetimiz vasitəsilə oğluna və oğlunun timsalında bütün əsgərlərə öz nəsihətini verməyi unutmadı.***



"Oğlum, deyəcəklərim yalnız sənə yox, sənin timsalında butun əsgərlərimizədir.

Harda işləsək də, vətəndaş olaraq hər birimiz əsgərik. Vətənin, torpağın, xalqın əsgəriyik. Vətəni qorumaq başlıca amalımızdır. Sən Vətənimizi daha böyük amallarla sev. Qəlbin Vətən sevgisinə beşik olsa anlayacaqsan ki, Vətən gecə də sənindir, gündüz də. Gecə də, gündüz də dayandığın səngərdə bunu daha əhatəli, daha duyğusallıqla anlayacaqsan.

Komandirlərinin lazım bildiklərini özünə vacib bil. Vacib bil ki, xidmətinə zərrəcə kölgə düşməsin. Əmr və tapşırıqlara vaxtında və düzgün əməl et. Təlimlərdə fəal ol, işğalda qalan torpaqlarımızda bayraq sancanlarımızın sırasında olacağına varlığımla inanıram.

Bəşər tarixi müharibələrlə zəngindir. Hər müharibənin qalibləri olur. Sən, Azərbaycan əsgəri kimi qalib ordunun nümayəndəsi olacaqsan. Bunun üçün daim çalış. Yaxşılardan nümunə götür. Onları dəyərləndir, başqalarının da götürməsinə vəsilə ol.

Oğul, Azərbaycan zəngin tarixə malik bir dövlətdir. Nə qədər ki bizlər varıq, deməli, Azərbaycan var. Bu torpaqların altı da, üstü də sərvətdir. Bu gözəl məmləkətin ərazi bütövlüyünə qəsd edənlərə qarşı amansız ol. Komandirlərinin əmrlərinə sözsüz əməl et.

Sən də xidmətini başa vuracaqsan. Elə bir xidmət yolu keç ki, hər zaman sevinclə xatırlayasan. Təkəbbürlü hərəkətlərdən, saxtalıqdan, qorxaqlıqdan uzaq ol. Mərdliyin və bacarığınla qəhrəmanların yolunun davamçısı ol. Mübarizlər kimi ol, özünə bir yol seç və yolun sonundakı məqsədinə doğru irəlilə.

Vətən oğlu ol. Vətənini alınmaz qala, özünü o qalanın müdafiəçisi bil. "Vətən, uğrunda ölən varsa, Vətəndir" kəlamını özünə sipər elə. Mübarizsən, qəhrəmansan. Sən Azərbaycan əsgərisən".

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# XİN: Etnik təmizləməni öz müqəddəratını təyinetmə kimi təqdim etmək beynəlxalq ictimaiyyətə hörmətsizlikdir

Xocalı soyqırımı və 2008-ci il martın 3-də Yerevanda törədilmiş siyasi terrorun növbəti ildönümü günlərində BMT-nin İnsan Hüquqları Şurasında çıxış edən Ermənistanın xarici işlər naziri hər hansı xəcalət və ya utanc hissi keçirmədən soyqırımı əməllərinin qarşısının alınması, insan hüquqlarının müdafiəsi və xalqların öz müqəddəratını təyin etməsi prinsipi barədə yalan dolu və təhrif olunmuş fikirlərlə çıxış edib.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin bununla bağlı açıqlamasında deyilir: "Ermənistan xarici işlər nazirinin yaddaşını təzələmək istərdik ki, 1975-ci il Helsinki Yekun Aktında öz təsbitini tapmış prinsiplərin üzvi şəkildə bir-biri ilə bağlı olduğu, onların bərabər və ümumilikdə tətbiq olunmasının vacibliyi qeyd olunaraq, ilk növbədə bir dövlətin digər dövlətin ərazi bütövlüyü və ya siyasi suverenliyinə qarşı güc tətbiq etmək və ya güc tətbiq edərək hədələməkdən çəkinməsi kimi öhdəliyinin olduğu qeyd edilir.

Sənəddə dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri bir daha təsdiq olunaraq, güc vasitəsilə ərazi əldə edilməsinin qəbuledilməzliyi vurğulanır. Bununla bərabər, dövlətlərin ərazi bütövlüyü və ya siyasi suverenliyinə qarşı gücdən istifadənin nəticəsində yaranmış vəziyyətin hüquqi qəbul edilməməsinə dair dövlətlərin öhdəliyi var. Həmçinin xalqların öz müqəddəratını təyin etməsi hüququnun ifadəsi hər hansı dövlətin ərazi bütövlüyü və ya siyasi müstəqilliyinə qarşı fəaliyyətin həyata keçirilməsinə imkan verən hal kimi təfsir oluna bilməz. Helsinki Yekun Aktının 8-ci bəndində deyilir: "İştirakçı dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etmək hüququna hörmət edərək, bütün hallarda BMT Nizamnaməsinin məqsəd və prinsipləri və beynəlxalq hüququn müvafiq normaları, eləcə də dövlətlərin ərazi bütövlüyünə uyğun şəkildə fəaliyyət göstərəcəklər.

Ermənistan güc tətbiq edərək Azərbaycan ərazilərinin işğalı və zəbt olunmuş ərazilərdə törədilmiş etnik təmizləmənin nəticələrini pərdələmək üçün "öz müqəddəratını təyinetmə" prinsipindən sui-istifadə edir".

**AZƏRTAC-ın materialları əsasında**

# Silahlı Qüvvələrdə psixoloji iş üzrə dinləyicilərin növbəti buraxılışı olub



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Hərbi psixoloq" ixtisası üzrə təkmilləşdirmə kursunu müvəffəqiyyətlə bitirən dinləyicilərin növbəti buraxılışı keçirilib.

Kurs müddətində ixtisaslı mütəxəssislər tərəfindən şəxsi heyətə "Silahlı Qüvvələrdə psixoloji işin təşkilinə və aparılmasına dair təlimat"ın tələbləri, eləcə də hərbi kollektivlərdə sağlam mənəvi-psixoloji vəziyyətin qorunub saxlanılması, hərbi qulluqçuların psixoloji xüsusiyyətlərinin aşkarlanması, fərdi söhbətlərin aparılması qaydaları və əhəmiyyəti, psixoloji yardımın göstərilməsi və digər istiqamətlər üzrə tələblər və tövsiyələr çatdırılıb.

Hazırlıq müddətində şəxsi heyət psixoloji işin təşkilində müxtəlif orduların təcrübəsi, qoşunlarda psixoloji dayanıqlığın saxlanılması, hərbi qulluqçuların və onların ailə üzvlərinin, habelə, mülki işçilərin psixi sağlamlığının qorunması mövzularında mühazirələr dinləyib.

Silahlı Qüvvələrdə psixoloji işin təkmilləşdirilməsi və inkişafı məqsədilə kurslar davamlı olaraq plana uyğun həyata keçiriləcəkdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Baş çavuşun qayğıları

Qarabağ müharibəsi genişlənəndə Farizin heç 10 yaşı yox idi. Amma döyüşlər onun doğma rayonuna - Beyləqana da lap yaxınlaşmışdı. Azərbaycanın cəsur oğulları bu qədim Azərbaycan şəhərini qoruyub saxlamağı, düşməni geriyə atmağı bacardılar. Həmin ağır döyüşlərin əks-sədası Fariz Həsənovun da dünyagörüşünə böyük təsir göstərmişdi. İşğalçılara nifrət və Vətəni qorumağın vacibliyi onun düşüncələrinə hakim kəsilmişdi.

Orta məktəbi bitirdikdən sonra şahsevənli oğlan ordu sıralarına yollandı. Topçu ixtisasına yiyələnən əsgər artilleriya kəşfiyyatçısı kimi həmişə peşəsinə məsuliyyətlə yanaşdı. Komandirləri qabiliyyətini, silahdaşları arasında hörmətini nəzərə alıb onu manqa komandiri təyin etmişdilər. Dəfələrlə komandirləri tərəfindən nümunəvi xidmətinə görə mükafatlandırılmışdı.

- Hər bir əsgərin borcudur ki, Vətənimiz Azərbaycana ləyaqətlə xidmət etsin, - Fariz Həsənov deyir. - Peyğəmbərimiz də buyurub ki, Vətəni qorumaq imandandır. Həm də yaxşı xidmət etmək valideynlərin üzünü ağ etməkdir. Mən bu ovqatla da 2000-2002-ci illərdə əsgəri borcumu başa vurub evimizə qayıtdım.

Farizin həyatında ən önəmli hadisə bundan sonra baş verdi. Təxminən bir ildən sonra yenidən ordu sıralarına qayıtmaq qərarına gəlir. Vətənimizin paytaxtında gizirlik kursunu bitirdikdən sonra döyüş maşınına komandir təyin olunur. Bir müddət müxtəlif hərbi hissələrdə xidmət edir. Həmişə nümunəvi xidmətilə seçilən gizir Fariz Həsənov komandirləri tərəfindən mükafatlara la-



yiq görülüb. İndiyədək aldığı fəxri fərmanları hələ də evdə saxlayır.

Hazırda baş gizir "N" hərbi hissəsində batareyanın baş çavuşu vəzifəsini daşıyır.

- Son illərdə ordumuzun böyük inkişaf yolu keçdiyini öz hərbi hissəmizin timsalında deyə bilərəm. Bizim artilleriyaçılar üçün müasir yataqxanalar, yeməkxana, texnikaların saxlanması üçün bokslar tikilib istifadəyə verilib. Şəxsi heyət üçün hər cür şərait yaradılıb. Təminat yüksək səviyyədədir.

Batareyanın təsərrüfatına cavabdeh şəxs kimi baş gizir həm əmlakın qorunub saxlanmasına, şəxsi heyətin məişət şəraitinə nəzarət edir, həm də şəxsi heyətin daxili intizama riayət etməsinə ciddi diqqət yetirir. Topçuların səhər baxışını və axşam yoxlamasını hər gün baş gizir F.Həsənov özü aparır, hamının xarici görkəminin qaydasında olmasını daim diqqətdə saxlayır. Onların tibbi müayinədən keçirilməsinə də batareyanın baş çavuşu nəzarət edir. Bir sözlə, batareyada qayğıların öhdəsindən bacarıqla gəlir.

Biz onunla batareyanın yataqxanasına, məişət otağına baş çəkdik, şəxsi heyətin sosial şəraitilə tanış olduq. Doğrudan da, burada gördüklərimiz, səliqə-sahman ürəyimizdən oldu. Belə şəraitdə məsuliyyətlə xidmət etmək hər kəsin borcudur.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Şəhidlik vətənpərvərlik nümunəsidir

***Bir dəfə əməkdaşımız şəhidlik mövzusunda yazı hazırlamışdı. Şəhidliyi mənəvi dəyərlərimizin ən uca zirvəsi hesab edən jurnalist yazını konkret misallar əsasında hazırlamışdı.***



Hacıqabul rayonundan olan bir şəhid övladının - gənc zabitin erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınmasında göstərdiyi fədakarlığa görə həlak olmasını cəmiyyətimizə əsl vətənpərvərlik nümunəsi kimi təqdim etmişdi. Bu gün həmin rayonun Şəhidlər xiyabanında ata və oğulun qoşa məzarı hər dəfə bura ziyarətə gələnləri bir anlığa ayaq saxlayıb düşündürür, hər kəsi onların mənalı ömür yolundan nümunə götürməyə ruhlandırır...

Bu yaxınlarda tank qoşunlarına məxsus hərbi hissələrimizdən birində ezamiyyətdə olan zaman şəxsi heyətlə iş üzrə komandir müavininə dəyərli xidmətləri ilə nümunə olan gənc zabit haqqında yazı hazırlayacağımı bildirdim. Zabit Şövqi Məmmədov bir taqım komandiri haqqında söz açdı və onun şəhid övladı, vətənpərvər hərbçi olduğunu bildirdi.

Baş leytenant Rəşad Mehdiyev 23 yanvar 1991-ci ildə Yevlax rayonunda doğulub. Atası Məhəmmədəli Mehdiyev keçmiş Sovet ordusu sıralarında əsgəri xidmətini başa vurandan sonra torpaqlarımızı Ermənistan hərbi birləşmələrinin təcavüzündən qorumaq üçün könüllü döyüşçülər sırasına qoşulub. 1992-ci il martın 29-da Şuşa ətrafında gedən hərbi əməliyyatların birində şəhid olub. Yevlax rayonunun ilk şəhidlərindən olan Məhəmmədəlinin bir oğul, bir qız yadigarı qalıb. Rəşad ailəlidir, oğluna atasının adını qoyub: Məhəmmədəli Rəşad oğlu Mehdiyev.

- Bəzən atamın haqqında düşünəndə özümü hamıdan qürurlu sanıram, axı atam müqəddəs bir yolda - Vətənimizin düşməndən qorunması uğrunda mübarizədə şəhid olub. Atamı itirəndə heç iki yaşım yox idi, - deyən gənc zabit nə qədər ağrılı olsa da, söhbətini davam etdirir. - 4-5 yaşım olandan sonra hər şeyi başa düşməyə başladım. Anamın evimizin bir küncündə bəzən hönkür-hönkür ağladığını görəndə "Ana, niyə məndən gizlin ağlayırsan", soruşardım. O isə kövrək baxışlarını üzümə zilləyib hey baxardı, saçlarıma sığal şəkib deyərdi: oğlum, inşallah, böyüyəndə sən də atan kimi əsl kişilərdən olacaqsanmı?

Bəli, qarşımda bir şəhid övladı əyləşib, onu danışdırmaq, söhbətə tutmaq bir peşə borcumdur. Danışdıqca, kövrəldiyini hiss etdirməyə çalışmasa da, qəlbindən keçənləri yaxşı duyuram. Hələ söhbətimizin bir məqamında əllərini ovcunda möhkəmcə sıxıb saxlaması da diqqətimdən yayınmır. Bu düşmənlərimizə bir mesajdır, qoy anlasınlar ki, bu gün Azərbaycan Ordusunun sıralarında Rəşad kimi nə qədər mətin oğullarımız, onlara qan udduracaq igidlərimiz xidmət edirlər.

Rəşad deyir ki, böyüyüb məktəbə gedəndə, ətrafındakı insanlardan da bir mehribanlıq, səmimiyyət görərdi və elə bil hamının baxışlarından bir ifadə oxunardı. "O şəhid övladıdır". Bu yerdə müharibədən bəhs edən bir ingilis filmini xatırlayıram. Filmə böyük maraqla baxmışdım və sonda bir daha yəqin etmişdim ki, doğrudan da, şəhidlik insanlığın, mənəviyyatın zirvəsidir.

- Anamın dediyi kimi, böyüdükcə hər şeyi dərindən başa düşdüm və tək atamın deyil, bütün şəhidlərimizin intiqamını düşməndən almaq üçün hərbçi olmaq qərarına gəldim, - deyir Rəşad. - Seçimim anamın da ürəyincə oldu, xeyir-duasını verdi: oğul, südüm halalın olsun, - dedi. Tankçı zabit oldum, əynimə hərbi forma geyindiyim gün sevincimin həddi-hüdudu yox idi. Müdafiə nazirinin əmri ilə cəbhə bölgəsinə göndəriləndə qarşımda həm atamın, həm də Vətənimin haqqını düşündüm. Yola düşməzdən öncə atamın məzarını ziyarət etdim və aşağı əyilib yavaşca pıçıldadım: ata, rahat uyu, sənin intiqamını düşməndən almaq bu gündən həyat amalımdır. Hərbi hissəmizə gələndən sonra səmimi bir kollektivlə qarşılaşdım, hər addımda dəyərli zabitlərimizin köməyini, qayğısını hiss etdim. Günlər, həftələr keçdikcə təcrübə qazandım, əsl komandir üçün gərəkli olan keyfiyyətlərə alışdım. Bu yolda zəhməti olan hər kəsə ömrüm boyu minnətdaram.

Söhbətimiz başa çatır, qərargaha qayıdıram. Geriyə baxanda isə gənc müsahibimin vaxt itirmədən tabeliyində olanlarla çöl məşğələsinə davam etdiyini görürəm. Yol boyu zabit Şövqi Məmmədova minnətdarlıq edirəm. Əlbəttə, sağ olsun ki, məni dəyərli bir zabitimizlə tanış etdi. Yenə də nələr düşünürəm, düşünürəm ki, bir gün Ali Baş Komandanımız döyüş əmri verəcək və Rəşad Mehdiyev də fədakar Vətən oğullarından biri olaraq öndə vuruşacaq. Haqq qalib gələcək və onda Rəşadın arzuları dil açıb deyəcək: "Ata, qisasını almışam!"

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# Mübarizin qəhrəmanlığı bizə örnəkdir



Mən, Ağsu rayonundan ordu sıralarına çağırılmışam. Hərbi xidmətə yola düşəndə böyüklərin xeyir-duasını eşitdik, istəklərini dinlədik. Biz həmin gün ordu sıralarında, demək olar ki, ilk addımlarımızı atdıq. Həyəcanlı görünsək də, içimizdə bir qürur var idi. Mənimlə yola düşən bütün çağırışçılar Vətənə övladlıq borcunu şərəflə ödəyəcəklərinə söz verdilər. Söz verdik ki, xidmətimizi sağ-salamat başa vurduqdan sonra bir yerə yığışaq, hərbi xidmətə yola düşdüyümüz günü həyatımızın ən əziz günü kimi xatırlayıb, ötüb keçənlərdən danışaq. Hər birimiz ayrı-ayrı hərbi hissələrə düşmüşdük, "Allah amanında" - deyib, görüşüb ayrıldıq bir-birimizdən. İndi həmin o gündən artıq 6 aya yaxın vaxt keçir.

Ali təhsilliyəm. Hərbi qanunlarımızı yaxşı bilirəm. Günün nizam qaydalarına uyğun olaraq xidmətim keçir. Hər bir gənc əsgər kimi, mənim də hərbi hissəyə gəldiyim ilk günlərin çətin anları arxada qalıb. Məşğələ və dərslər, təlimlər, nizam-intizam, ordu sıralarında bizi daha da möhkəmləndirir. Əsgərlik, həqiqətən, kişilik məktəbidir. Mən bu fikrin dərinliyini xidmət dövründə anladım. Əsgərlik bizə dar günün dostluğunu öyrədir, mərdlik, cəsurluq, qorxmazlıq kimi xarakterləri formalaşdırır.

Son illərdə Mübarizin, Fəridin qəhrəmanlığı bizdə böyük ruh yüksəkliyi yaratdı. Onlar Vətəni necə sevməyi, torpağı necə qorumağı öyrətdilər. Belə qəhrəmanlarımız haqqında yazılan əsərləri, şeirləri dönə-dönə oxuyuruq. Mübariz düşməndən qisasını ala bildi, təkbaşına nə qədər düşmənin canlı qüvvəsini məhv etdi. Onu cismən itirmişik, ruhu bizimlədir. Mübarizin qəhrəmanlığı unudulan deyil. Onun düşmən üzərindəki qələbəsi bizi də torpaqlarımızın azadlığı uğrunda böyük Qələbəyə səsləyir.

**Əsgər**
**Cahangir BABAXANOV,**
**"N" hərbi hissəsi**

# Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Fevralın 29-dan martın 4-dək Tirana şəhərində (Albaniya) tərəfdaşlıq təlim və tədris mərkəzi rəislərinin illik konfransı, Kunqsangen şəhərində (İsveç) öyrənilmiş təcrübələr üzrə qərargah zabiti kursu, Ramştayn şəhərində (Almaniya Federativ Respublikası) Əməliyyat İmkanları Konsepsiyası üzrə işçi qrupunun birinci görüşü, fevralın 29-dan martın 18-dək Qarmış-Partenkirxen şəhərində (Almaniya Federativ Respublikası) dil testi üzrə təkmilləşdirmə seminarı, Ankara şəhərində (Türkiyə) fevralın 29-dan martın 11-dək silahlı münaqişə kursları keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

# "Naxçıvan istiqamətində yerləşən təmas xəttindəki vəziyyətlə əlaqədar yayılan məlumat əsassızdır"

2014-cü ilin iyununda bəzi elektron kütləvi informasiya vasitələrində Naxçıvan istiqamətində yerləşən qoşunların təmas xəttindəki vəziyyətlə əlaqədar verilmiş dezinformasiya xarakterli məlumat bu gün təkrarən sosial şəbəkələrdə və elektron mediada yayılıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, həmin məlumat təqribən iki il bundan əvvəl verilib və elə o vaxt da dərhal nazirlik tərəfindən bu xəbərin dezinformasiya olması bildirilib.

Nazirlik bu əsassız xəbərin yenidən gündəmə gətirilməsini kimlərinsə maraqlarına xidmət və təxribata şərait yaratmağa cəhd kimi dəyərləndirir.

# Hərbi qulluqçuların praktik bacarıqları təkmilləşdirilir



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Qaraheybət təlim mərkəzində hərbi qulluqçuların peşəkarlığının və nəzəri biliklərinin artırılması, praktiki vərdişlərinin möhkəmləndirilməsi məqsədilə hazırlıq məşqləri keçirilib.

Şəxsi heyətə real döyüş şəraitinə uyğun vəziyyətdə zirehli texnikaların idarə edilməsi, manevr imkanları öyrədilib, eləcə də ekipajların praktiki hazırlığı, şərti düşmənin canlı qüvvə və texnikasına zərbə vurulması üzrə tapşırıqlar icra olunub.

Hərbi qulluqçuların silahlanmada olan müxtəlif çaplı silahlardan praktiki istifadə etmək bacarıqları təkmilləşdirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Vətənpərvərlik*

# Mənəvi ucalıq

***Öz Vətənini, azadlıq və istiqlaliyyətini sevən xalqın ruhunu məhv edəcək bir qüvvə yoxdur. Azərbaycan xalqı da həmişə öz milli kimliyinə sadiqliyi və vətənpərvərliyi ilə seçilib. Daxildə yaranan bu sevgini isə hər bir insan əməlləri və gördüyü işlərlə sübut etməlidir.***

Neftçala rayonunda olarkən Vətənə sevgisi əməllərində təzahür edən oğullardan biri - Qarabağ müharibəsi əlili Ceyhun Mehdiyevlə görüşüb söhbətləşmək bir hərbi jurnalist olaraq məndə könül xoşluğu yaratdı. Ceyhun 1973-cü ildə Neftçala rayonunda dünyaya göz açıb. Vətənimizin qanlı-qadalı günlərində torpaqlarımızın müdafiəsinə qalxan, Vətən uğrunda sinəsini sipər edən oğullardandır. Ağdamın Qızıl Kəngərli, Papravənd, Yeddi xırman kəndlərində gedən döyüşlərdə iştirak edib. 1993-cü il iyulun 4-də yaralanıb. Alt çənənin sağ tərəfindən aldığı güllə yarasından sonra dilinə 32 tikiş düşən, səkkiz ay qidalanmasında çətinliklərlə qarşılaşan müsahibim sağ qalmasını indi də möcüzə hesab edir. Sinəsində Qarabağ dağı daşıyan müharibə əlili Ali Baş Komandanın düşmən tapdağı altında od tutub yanan əzəli torpaqlarımızın alınması üçün verəcəyi əmri səbirsizliklə gözləyir.

Ceyhunla söhbətimdən öyrənirəm ki, o ağır günlərdə qardaşı, Qarabağ müharibəsi əlili Gəray da Vətənin müdafiəsində iştirak edib. Düşünürəm ki, ürəyi Vətən eşqi ilə çırpınan, torpağı canından çox sevib, uğrunda hər an döyüşə hazır olan bu insanların qəlbindəki Vətən sevgisinin bünövrəsi ailədə qoyulub. Həqiqətən də, layiqli ailə tərbiyəsi hər kəsin vətənpərvər böyüməsində müstəsna rol oynayır. Vətənimizin dar günündə bu iki qardaş da öz arzuları ilə torpaqlarımızı qorumaq üçün döyüşlərə atılıb. Bu onların mənəvi istəyindən, vətənpərvərlik hissiyyatlarından irəli gəlib.

Ceyhun 2001-2011-ci illərdə Neftçala rayon Qarabağ



Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinə sədrlik edib.

- Hər bir insan həyatda özünəməxsus yerini tapmalıdır, - deyir müsahibim. - Şəhidlər millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, millətlər arasında saydıran amillərdən biridir. Dövlətimiz şəhidlik mövzusunu daim qiymətləndirir, şəhid ailələrinə diqqət və qayğısını əsirgəmir. Döyüşlərdə xəsarət almış, əlil olmuş insanlar ömürlərinin ən qaynar vaxtında torpaqlarımızı qorumaq üçün qəhrəmanlıqlar göstəriblər. Bu gün mənim kimi silahdaşlarım da hər an Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə Vətənimizin bütövlüyü və torpaqlarımızın azad olunması üçün ayağa qalxmağa hazırdılar.

Yeri gəlmişkən qeyd edim ki, Ceyhun ötən il Neftçala rayonunda Birinci Avropa Oyunlarının məşəlini qəbul edib. Ulu öndər Heydər Əliyev dəfələrlə vurğulayırdı ki, Qarabağ qaziləri, əlilləri, veteranları Azərbaycanın ən layiqli övladlarıdır, onlar hər zaman cəmiyyətdə dərin hörmət və ehtirama layiqdirlər. Azərbaycan dövləti həmişə əlilə, şəhid ailəsinə arxa, həyan olub. Hazırda əlillərimizin reabilitasiyası və müalicəsi istiqamətində atılan addımlarla bərabər, onların mənzillərlə və minik avtomobilləri ilə təmin olunması yönündə də mühüm işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyev müharibə əlilləri və şəhid ailələrinin övladlarının təhsil haqlarının dövlət hesabına ödənilməsi ilə bağlı müvafiq sərəncam verib. Bu sərəncam yüzlərlə ailəyə sevinc bəxş edib. Müharibə əlillərinin və şəhid ailələrinin mənzil probleminin həlli istiqamətində də son illər böyük işlər görülüb. Ceyhun da 2007-ci ildə dövlət hesabına mənzillə təmin edilib.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında veteranlarımız öz töhfələrini verirlər. Müsahibim deyir ki, onu tez-tez rayon məktəblərində keçirilən tədbirlərə dəvət edirlər. "Gənc nəsildə vətənpərvərlik, milli qürur hissləri çox güclüdür. Onlar bizim etibarlı gələcəyimizin təminatıdır".

Vətən sevgisi fərdi sevgidən ilahi sevgiyə yüksəlmək üçün bir vacib məqam kimi ortaya çıxır. Vətəni, torpağı qorumaq və şəhidliyi gözünün önünə alıb vuruşa getmiş oğullardan biri - Ceyhun Mehdiyevlə söhbətimdə də onun mənəviyyatının zənginliyi məni çox fərəhləndirdi. Belə oğullar, doğrudan da, cəmiyyətimizə örnəkdirlər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Ana

Ötən əsrin 30-cu illəriydi...

Dərələyəzdə ermənilər camaatın "gününü göy əsgiyə düyümşdü..."

Gündüzü ki, gündüzüydü, gecəsi də gündüz kimiydi; kişilər yuxu üzünə həsrətiydi, Dərələyəzin gecəli-gündüzlü keşiyindəydi. Qadınlar bir yana, ölümün nə olduğunu dərk eləyən uşaqların da yuxusu yoxuydu - qadınlar "çimir alır", uşaqlar gecəni səksəkəylə səhər eləyirdilər...

Mahı da hər güllə səsinə oyanar, təlaş, səksəkə içində çölə boylanar, güllə səslərinin direşdiyini hiss edincə balıncının altına qoyduğu xəncəri götürüb qoşalüləni sinəsinə sıxan anasının yanında dayanar, gözaltı körpə bacısının, qardaşının yatdığı səmtə göz yetirərdi...

Dərələyəzdə hər üç evdən biri sıxıntı içindəydi...

Türklər gəlməsəydi, camaatın sıxılcımı uzun çəkərdi...

...Körpəliyində də, uşaqlığında da, yeniyetməliyində də ermənilikdən zillətlər çəkib. Cavanlığında Dərələyəzdə müəllim işləyəndə də mənəvi sıxıntı yaşayanlardan olub. 3 əmisi oğlu, 2 xalası oğlu ermənilik güdazına getmişdi. Qisas almışdılar, ancaq ermənilik "qınına çəkilmirdi..." Və "bıçaq sümüyə dirənəndə", hökumət hökumətliyini unudanda, isti ocağından getməli oldu camaat...



...Camaat qurulu evini, dolu bucağını qoyub kənddən çıxırdı. Bu gedişin nə gediş olduğunu duyubmuş kimi, itlər "ağız-ağıza verib ulaşırdı..."

Camaat üzü naməlumluğa yol almışdı...

Tərtərdə məskunlaşdılar...

Yox yerdən yurd oldular...

Ürəkləri dərdli-dərdli Dərələyəzə sarı boylansa da, qədərlə barışdılar...

İllər keçdi...

Mahı dərələyəzli bir cavanla ailə qurdu.

Xoruzlu kəndində yaşayırdılar, kalxozda işləyirdilər. Əri naxırçıydı, özü isə sağıcı. İkisi də xətir-hörmət yiyəsiydi. Ermənilik "marığa yatıbmış".

Dərd üstün gələndə gecələrini tırınqılarla, qınıqımalarla sübh eləyirdi Mahı. Balalarına nağıl əvəzi Dərələyəzdən danışırdı, yaşadıqlarını nağıllaşdırırdı. İllər sonra ermənilik baş qaldırıb, Tərtərin həndəvərlərində də qımıldananda oğlu Vəzir də könüllü müdafiə batalyonuna yazıldı. Döyüşçü oldu Vəzir. Həm də boyu bərabərində görünən qətiyyətiylə, mərdliyiylə "yastığı sal daş, yorğanı küləklər" olanlardan biriydi Vəzir.

- Ay oğul, getmə, - deyirdim. Boynuma sarılırdı. "Danışdıqların qoyarmı evdə oturum, ay ana?" - deyərdi. - Ermənilərdən zülmlər görübsən. Onları yerində oturdanacan sənə yox, Vətənə, torpağa oğul olacam. Ermənilərin həniri batandan sonra oğlun olacam sənin, - deyərdi. Gedirdi. Günlərlə üzünü görmürdük...

Vəzir torpaqlarımızın müdafiəsinə gedirdi...

Vəzir döyüşlərə gedirdi...

1993-cü il martın 22-də döyüşlərdə şəhid oldu...

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Vəzir Orucova "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi...

Oğlu Əlyar da döyüşçüydü. Döyüşlərin birində yaralandı. Müalicə olunduqdan sonra yenidən döyüşdü. Az sonra şəhid oldu...

- Əsgərlərin hamısı mənim balamdı. Vətən dağı oğul dağından ağırdı, ay oğul. Bu dağı anaların ömründən-günündən əsgərlərimiz siləcək, - deyir iki şəhidin anası Mahı nənə.

- Çəkdiyim dərdləri yaşa hesablasan 96 yox, 196 yaşındayam", - kəlmələri ürəyimi göynətdi. Bunca yurd sevgisi (Dərələyəz), bunca Vətən sevgisi (Tərtər, Azərbaycan), bunca övlad sevgisi (Vəzir, Əlyar), bunca vətəndaşlıq (Azərbaycan Ordusuna sayğı, ehtiram) düşüncələrimdə şahlıq eləyir; bu sevgilərlə yaşayır şəhid anası, torpaqlarımızın işğaldan azad ediləcəyi günə bu işıqdan boylanır...

Qəhər görünmür baxışlarında qürur görünür, ehtiram görünür, sevgi görünür. Bu qürurun, bu ehtiramın, bu sevginin ünvanı Azərbaycan əsgəridi!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Tarix*

# Həyatını əsgərlərinə qurban etmiş general

***Azərbaycan Xalq Cümhuriyyətinin ordusu sıralarında 27 general xidmət etmişdi. Bu generallardan üçdə biri bu rütbəyə Azərbaycan hökumətinin qərarı ilə layiq görülmüşdü. Qalanları isə çar Rusiyası ordusu sıralarında general rütbəsini qazanmışdılar.***

***Azərbaycan hökumətinin qərarı ilə bu rütbəyə layiq görülmüş ilk Cümhuriyyət generallarından biri də Süleyman bəy Əfəndiyev idi. O, həm də Cümhuriyyət ordusunun ilk şəhid generalı kimi tarixdə qalmışdır.***

S.Əfəndiyev milli mənafelərə sadiq, xidməti vəzifələrə məsuliyyətlə yanaşan, son dərəcə işgüzar və s. keyfiyyətləri ilə fərqlənən bir hərbçi idi. O, həm də kövrək, sonsuz insani keyfiyyətlərə malik romantik bir insan olub. Hərbi nazir S.Mehmandarov bildirirdi ki, Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda tabeliyində olan zabitlərin ən birincisi idi.

1864-cü il oktyabrın 5-də Ağdamda doğulan Süleyman bəy Əfəndiyev ilk təhsilini Gəncədə tamamladıqdan sonra 1880-ci ildə Yelizavetqrad süvari məktəbinə daxil olmuş, 1885-ci ildə oranı başa vuraraq zabit rütbəsi almışdı. Onun çar Rusiyası ordusunda xidmət yolu haqqında lazımi məlumat hələ də mövcud deyil. Süleyman bəyin xidmət yolu əsasən Qafqazla bağlı olub. O, 1899-cu ildə rotmistr, 1912-ci ildə isə polkovnik rütbəsi almışdı.

1917-ci ilin fevral çevrilişindən sonra Qafqazdakı Rusiya ordusu buraxıldı və S.Əfəndiyev də bu ordudan istefa verərək Gəncəyə qayıtdı.

S.Əfəndiyev Gəncədə könüllü dəstələrin təlimi ilə məşğul olmağa başladı. Xalqın iqtisadi vəziyyəti az miqdarda belə maliyyə vəsaiti toplamağa imkan vermirdi. Ona görə də Süleyman bəy heç bir dolanışıq mənbəyi olmadan aylarla bu təlimləri aparmalı olmuşdu.

1917-ci ilin dekabrın ortalarında müsəlman korpusunun təşkilinə başlandı. Bu korpusda 5-ci atıcı alayın komandiri olan Süleyman bəy bir müddət ikinci diviziya komandirinin vəzifəsini də icra etmiş, Qafqaz İslam Ordusunun tərkibində Azrbaycanın bolşevik- daşnak qoşunlarından təmizlənməsində də fəal iştirak etmişdi.



Hərbi Nazirlik bərpa olunanda polkovnik Süleyman bəy Əfəndiyev Tərtərdə yerləşən 2-ci Qarabağ süvari alayının komandiri kimi onun formalaşdırılması üçün çox böyük fədakarlıq göstərirdi.

1918-ci il dekabrın əvvəllərində Səməd bəy Mehmandarov Qarabağ bölgəsində yerləşən hərbi hissələrin və bölmələrin vəziyyəti ilə tanışlığı zamanı yalnız Süleyman bəy Əfəndiyevin komandiri olduğu 2-ci Qarabağ alayında vəziyyətin xeyli yaxşı olduğunu müşahidə etdi. Bu tanışlıqla bağlı imzaladığı müfəssəl əmrində S.Mehmandarov yorulmaz xidmətlərinə görə Süleyman bəy Əfəndiyevə və onun ətrafında olan azsaylı zabitlərə öz təşəkkürünü bildirirdi.

S.Mehmandarovun əmri ilə o, daha yüksək vəzifəyə təyin edildi. Dekabrın 23-də S.Əfəndiyev özünün alaydaxili son əmrini imzaladı. Bu əmrini 2-ci Qarabağ süvari alayının hərbi qulluqçularına müraciətlə belə tamamlayırdı: "Mən inanıram ki, siz gələcəkdə də məğrur olacaqsınız, nəzərləri möcüzəbahadırlara dikilmiş bizim azad Vətənin və millətin bayrağını daşıyacaqsınız. Bu isə sizdən haradan gözlənilməsinə baxmayaraq, Vətənin düşmənlərdən müdafiəsi üçün şüurlu və birgə iş tələb edir. Vətənin gələcəyi sizin əlinizdədir. Onun abadlaşması, çiçəklənməsi və ya asılı vəziyyətdə qalması bizim özümüzdən asılıdır".

Sədaqətli xidmətini nəzərə alaraq S.Mehmandarov Azərbaycan hökuməti qarşısında Süeyman bəy Əfəndiyevə general-mayor rütbəsi verilməsi haqqında vəsatət qaldırdı. Azərbaycan hökumətinin qərarı ilə 1918-ci il dekabrın 29-da ona general-mayor rütbəsi verildi.

1918-ci ilin son günləri və 1919-cu ilin ilk günlərində Qarabağ bölgəsində yerləşən Cümhuriyyət ordusunun 1-ci piyada diviziyasının bəzi bölmələri və zabitləri Azərbaycan hökumətinə itaətsizlik göstərdilər və qiyam qaldırmağa cəhd etdilər...

Hərbi nazir S.Mehmandarov Cümhuriyyət ordusu daxilində müstəqil Azərbaycan hökumətinə qarşı itaətsizlik göstərilməsinə qarşı son dərəcə barışmaz bir mövqe tutdu. Bu xoşagəlməz halın dərhal aradan qaldırılması üçün Süleyman bəy Əfəndiyev hissə və bölmələrdəki vəziyyətlə tanış oldu, itaətsizlik göstərən bölmələri və zabitləri müəyyənləşdirdi, hökumətə sədaqətli olan bölmələr arasında iş apardı və çox tezliklə itaətsizlik göstərən hərbi qulluqçulara qarşı ciddi tədbirlərin həyata keçirilməsinə nail oldu. Nəticədə qısa müddət ərzində ordu daxilində qiyam cəhdinə son qoyuldu.

1919-cu il yanvarın 7-dən Süleyman bəy Əfəndiyev Cümhuriyyət ordusunun 1-ci piyada diviziyasının komandiri vəzifəsinin icrasına başladı və özünəxas işgüzarlıqla, ardıcıllıqla və məsuliyyətlə bu diviziyanın formalaşdırılmasına girişdi. İstər Hərbi Nazirlik, istərsə də Azərbaycan hökuməti üçün bu diviziyanın formalaşdırılması və təşkilatlandırılması çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu diviziya Qarabağda erməni təcavüzkarlığının qarşısını almaq üçün əsas qüvvə idi.

1919-cu il yanvarın 2-ci yarısından etibarən Ağdam qarnizonunun hissə və bölmələrində yayılmış səpmə yatalaq xəstəliyi çoxlu sayda əsgərin həyatına son qoyduğu kimi, Süleyman bəy Əfəndiyevin də ömrünü yarımçıq kəsdi. Bu xəstəliyin nəticəsində hər gün onlarca hərbi qulluqçu həyatını itirirdi.

Xəstəliyin qarşısının alınması üçün Süleyman bəy çox çalışdı, davamlı olaraq Hərbi Nazirliklə əlaqə saxladı, təsirli bir vasitə tapılmayanda isə özü xəstəliyə yoluxan hərbi qulluqçuların ağrı-acılarını unutdurmağa çalışdı. Bunun üçün o davamlı olaraq əsgərlər arasında oldu, onları tək buraxmadı.

Belə bir vaxtda Süleyman bəy Qazaxdan böyük oğlu Həsənin vəfat etməsi haqqında xəbər aldı. Oğlunu çox sevsə də, ölüm ayağında olan onlarla-yüzlərlə əsgərini tək və köməksiz qoyub dəfn mərasiminə getmədi. Övladı qədər sevdiyi əsgərləri arasında onu da xəstəlik tutdu və 1919-cu il fevralın 21-də Süleyman bəy Əfəndiyev xidmət başında səpmə yatalağı xəstəliyindən dünyasını dəyişdi...

S.Əfəndiyev vəfat edəndə hərbi nazir ezamiyyətdə idi. Ona görə də Hərbi Nazirlik adından onun dəfninin təşkili ilə bağlı əmri general Ə.Şıxlinski imzaladı. Həmin əmrin bir yerində deyilir: "General Əfəndiyevin çoxlu qayğı içərisində onun özü barəsində düşünməyə macalı yox idi - səpmə yatalağına tutuldu və postda dayanan əsgər kimi vəzifə başında keçindi. Qəbrin nurla dolsun, Vətənin əsl oğlu və yorulmaz döyüşçü".

**Mehman SÜLEYMANOV,**
**tarix elmləri doktoru,**
**ehtiyatda olan**
**polkovnik**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası adyunkturaya qəbul elan edir

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası Müdafiə nazirinin 14 oktyabr 2015-ci il tarixli 40 №-li əmrinə müvafiq olaraq, 2016-cı il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə adyunkturaya qiyabi və dissertantlıq yolu ilə qəbul elan edir.***

Qəbul "73 - Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsinə aid aşağıdakı ixtisaslar üzrə elan olunur:

- 7301.01 - Hərbi nəzəri elmlər;
- 7302.01 - Hərbi xüsusi elmlər;
- 7303.01 - Hərbi təbabət;
- 7304.01 - Milli təhlükəsizlik.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya Sialhlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan, ali təhsilli (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə həkim və həkim-mütəxəssis), həmçinin pedaqoji və ya elmi-tədqiqat işində bacarığı olan zabitlər (qulluqçular) qəbul olunur. Mülki ali təhsil müəssisələrini bitirən zabitlər, bundan əlavə zabit vəzifələrində iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdır.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmaq qabiliyyəti və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan zabitlər (qulluqçular) qəbul edilir.

Adyunkturaya qəbul olmaq üçün raportlar komanda üzrə 01.05.2016-cı il tarixinədək hərbi hissələrin komandirlərinə, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə verilir.

Raporta əlavə olunur:

- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış zabitlər (qulluqçular) üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- xidməti (iş yerindən) xasiyyətnamə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- çap olunmuş elmi əsərlərin siyahısı (elmlər doktoru hazırlığı üzrə);
- "Elmlər doktoru" elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış zabitlər (qulluqçular) üçün təkrar attestasiya (nostrifikasiya) diplomu);
- dissertasiyanın açıq planı və bu dissertasiyanın yerinə yetirilməsinə maraqlı olan hərbi təşkilatlardan, yaxud ixtisas üzrə "elmlər doktoru" elmi dərəcəsi olan mütəxəssislərdən ikisi onun mövzusu üzrə yazılı rəyi (elmlər doktoru hazırlığı üzrə).

Hərbi hissələrin komandirləri, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəisləri adyunkturaya daxil olmaq istəyənlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə 01 iyun 2016-cı il tarixinədək Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisinə göndərməlidir.

Adyunkturaya seçim və qəbul qaydaları Azərbaycan Respublikası Müdafiə nazirinin 14 oktyabr 2015-ci il tarixli 40 №-li əmrinə uyğun olaraq həyata keçiriləcək.

**Ünvan:** Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, Qızıl Şərq şəhərciyi, Silahlı Qüvvələrin Hərbi Akademiyası.

**Əlaqə telefonu:** (012) 538-41-53.
*E-mail:* doktorantura@box.az

# Məktəblilərin hərbə marağı böyükdür



Bakı şəhəri 162 nömrəli tam orta məktəbin şagirdləri silah və texnika ilə, həmçinin əsgər həyatı ilə yaxından tanış olmaq üçün tez-tez "N" hərbi hissəsinə gəlirlər. Yeniyetmələrə hərbə maraq hissi aşılamaq baxımından bu az əhəmiyyət daşımır.

- Hərbi hissənin komandanlığından çox razıyıq, - deyə çağırışaqədərki hazırlıq fənninin müəllimi Sərvan Şirinov söhbətimizdə bildirdi. - Burada şagirdlərin silah və texnikaları öyrənməsi üçün yaxşı şərait yaradılır. Ona görə də məktəblilər hərbi hissəyə həvəslə gəlirlər. Onlar silahların sökülüb-yığılma qaydalarını, digər xüsusiyyətlərini maraqla öyrənirlər. Hazırlığımız yüksək olduğuna görə şagirdlərimiz həmişə məktəblilər arasında keçirilən "Şahin", "Cəsurlar" hərbi idman və turizm yarışlarında yaxşı nəticə göstərirlər. Bizə yaradılan şəraitə görə hərbi hissənin komandanlığına minnətdarlığımı bildirirəm.

Budur, sabahımızın əsgərləri olacaq şagirdlər silahların sökülüb-yığılma qaydalarını öyrənirlər. Gizir Niyazi Alıyev avtomat silahının taktiki-texniki xüsusiyyətlərini məktəblilərə izah edir, suallarına ətraflı cavab verir.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İraqda terror aktı: 22 ölü



İraqın paytaxtı Bağdad şəhərində əsasən şiələrin yaşadığı məhəllədəki bazarda törədilən partlayışlar nəticəsində azı 22 nəfər ölüb, 60-a yaxın insan yaralanıb.

"Sadr City"də baş verən partlayışlara görə məsuliyyəti İŞİD qruplaşması öz üzərinə götürüb.

Qeyd edək ki, bu, cari ildə İraqda törədilən ən qanlı terror aktıdır.

### Sarı dənizdə iki gəmi toqquşub



Sarı dənizdə iki gəmi toqquşub. Hadisə nəticəsində 10 nəfərin itkin düşdüyü bildirilir.

İnsident Çinin Çaolyan adasının yaxınlığında baş verib. Yerli KİV-lərin məlumatına əsasən, dumanlı havada balıqçı və kommersiya gəmiləri toqquşub. Hadisə nəticəsində göyərtəsində balıqçıların olduğu gəmi batıb.

Xilasedicilər itkin düşənlərin axtarışına başlayıb. Əlverişsiz hava şəraiti axtarış-xilasetmə əməliyyatını çətinləşdirir. Qəzanın başvermə səbəbləri araşdırılır.

### Pakistanın Şimali Vəziristan əyalətində 15 terrorçu məhv edilib



Pakistan mətbuatının yaydığı məlumata görə, ölkənin Hərbi Hava Qüvvələrinin Şimali Vəziristan əyalətinin Maysar rayonunda "Taliban" hərəkatının düşərgəsinə hava zərbələri endirməsi nəticəsində azı 15 terrorçu məhv edilib.

Əməliyyatın gedişində terrorçuların dörd sığınacağı dağıdılıb. Yaralananlar haqqında məlumat verilmir.

Pakistan ordusu Əfqanıstanla sərhəd rayonlarında antiterror əməliyyatlarına 2014-cü ildə "Taliban" hərəkatı üzvlərinin Kəraçi aeroportuna hücumundan sonra başlayıb.

### İndoneziya sahillərində 5 bal gücündə zəlzələ baş verib



Fevralın 28-də İndoneziya sahillərində 5 bal gücündə zəlzələ baş verib. Bu barədə ABŞ-ın Geoloji Xidməti məlumat yayıb.

Yeraltı təkanların episentri Kefamenanu şəhərindən 63 kilometr şimal-qərbdə, ocağı isə 99 kilometr dərinlikdə yerləşib.

Dağıntılar və zərərçəkənlər barədə xəbər verilmir. Sunami təhlükəsi elan edilməyib.

### Çexiyanın köməyi ilə Makedoniya sərhədində nəzarət gücləndiriləcək



Çexiya Makedoniya polisini texniki avadanlıqla təmin edəcək. Bu, miqrantların Qərbi Avropaya yönəldiyi Makedoniya-Yunanıstan sərhədində nəzarət sisteminin yaxşılaşdırılmasına imkan verəcək. Rəsmi Praqa Makedoniyaya radar qurğuları və gecəgörmə kameraları göndərəcək. Çexiya hökuməti maşın alınması üçün də 20 milyon kron (740.740 avro) məbləğində vəsait ayırıb. Çexiya daxili işlər naziri Milan Xovanets Makedoniyaya səfəri zamanı deyib: "Çexiya polisi bu dövlətin ərazisində aprelin sonuna qədər qalacaq".

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# "İndi zəfər növbəsi sənindir"



*Günlər buğda dənələri kimi vaxtın dəyirmanında sovrulub yavaş-yavaş tarixin arxivinə düşür. Məlum həqiqətdir: zaman ötəri, söz əbədidir. Deyilənlər, yazılanlar ağ vərəqlərdə, ötüb-keçən illərdə qalır. Sözdə böyük qüdrət olduğunu kim bilmir ki? Söz vaxtında və yerində deyiləndə daha dəyərli olur. Azərbaycan ədəbiyyatında sözə böyük dəyər verən yazıçı və şairlərimiz çoxdu. Onlar sözün qüdrəti ilə ölməz əsərlər yaradıblar. Düz sözün dəyəri daha çoxdu. Onu ucuzlaşdırmaq olmaz. Sevimli şairimiz Məmməd Araz sözə böyük dəyər verərək yazırdı: "Düz sözdür dünyada hər şeydən baha". Neçə-neçə şairlər düz sözün qurbanı olub. Düz söz üstündə Həllac Mənsurun, Nəsiminin dərisi soyulsa da, əqidələrindən dönməyiblər. Dünyaca məşhur olan yazıçı Çingiz Aytmatov sözə böyük önəm verirdi: "Söz əbədi bir qüdrətdir".*

Xalq şairi Fikrət Qoca ədəbiyyatımızda öz sözü olan, sevilən şairlərdəndir. Onun yaradıcılığına xas olan xüsusiyyətlərdən biri də poetiklik, lakoniklik və fikir aydınlığıdı. Şairin hər misrasında, hər sətrində dərin məna, insan düşüncəsini hərəkətə və vəcdə gətirən işıqlı fikirlər var. Fikrin poetikliyi, misraların yığcamlığı və həzinliyi oxucuya zövq verir. Fikrət Qocanın sözlərinə neçə-neçə mahnılar bəstələnib. Oxucunu, bəstəkarı şairin yaradıcılığına cəlb edən nədir? Təbii ki, sadəlik, gözəllik və sözlərin məna tutumu.

Bu günlərdə Fikrət Qocanın 1967-ci ildə qələmə aldığı "Unutma" şeirini oxudum. Bu şeir sirli-sehirli bir qüvvə ilə məni özünə təzədən çəkdi. "Unutma"nı oxuduqca bir anlıq elə zənn edirsən ki, bu misraları şair yox, sanki bir sərkərdə, komandan yazıb. Düşünürsən ki, bu misraların müəllifi ağır döyüşlər görüb, çarpışıb, vuruşub. Səngər həyatı yaşaya-yaşaya, zəngin döyüş təcrübəsi toplayıb. Muncuq kimi bir-birinin ardınca düzülmüş misralar zabitə, əsgərə ünvanlanıb. Oxuduqca hiss edirsən ki, şeirin içində döyüş havası, savaş ovqatı, qələbə əzmi var. "Unutma" bu misralarla başlayır:

**Həyat döyüşdü,**
**Məğlubiyyət də zəfər uğrunda**
**görülən işdi.**
**Zəfər çalan da,**
**Məğlub olan da insandı.**
**Qalibin işi asandı.**
**Məğlubiyyət işin içində nöqsandı.**

İlk misralardan həyatın bir döyüş olduğunu oxucusunun diqqətinə çatdıran müəllif onu daim mübariz olmağa, qalib olmağa çağırır. Qeyd edir ki, döyüşdə məğlubiyyət də qaçılmazdır. Müəllif vurğulayır ki, əgər məğlub olmusansa, deməli, nə isə işin içində bir nöqsan var. Ya hücum yaxşı təşkil olunmayıb, ya kömək vaxtında gəlməyib, ya da düşmənin gücü düzgün hesablanmayıb. Axır ki, əməliyyat zamanı səhvə yol verilib. Təbiidir ki, səhv buraxılmasaydı, məğlubiyyət də olmazdı. Göründüyü kimi, şair fikrini poetik dillə, sərrast misralarla ifadə edib. Şeirdən belə nəticə çıxır ki, məğlubiyyət də bir dərsdir. Həyat dərsi, döyüş dərsi. Şair zabiti, əsgəri məğlubiyyətə gətirib çıxaran nöqsandan ibrət dərsi götürməyə çağırır. Nöqsanı də əsəbləşib coşmadan, səbrlə, təmkinlə yoluna qoymağı tövsiyə edir. Sözü elə yumşaqlıqla, elə ustalıqla deyir ki, əsgər, zabit ruhdan düşməsin, qolu boşalmasın. Mübarizlik və döyüşkənlik əzmini itirməsin. Əksinə, məğlubiyyətdən sonra öz üzərində lap çox çalışsın. Yorulmadan təlim keçib yeni hərbi biliklərə yiyələnsin, döyüş vərdişlərini artırsın. Şair məğlub olmuş döyüşçüyə ürək-dirək verir, onu qələbəyə ruhlandırır:

**İkiqat çalışmalısan sən indi,**
**İndi zəfər növbəsi sənindi.**
**Məğlubiyyətdən sonrakı zəfər,**
**ayrı cür dadlı olur...**

Təbiidir ki, qalib gələndən sonra döyüşçülərdə arxayınçılıq yaranır. Zənn edir ki, artıq düşmən məhv edilib. Amma döyüşdə, müharibədə hər şey ola bilər. Qəfil dəyişiklik hər an gözləniləndi. Bəlkə elə düşmən hiylə işlədərək özü qəsdən geri çəkilib. Aldadıcı manevr edir. Geri çəkilib ki, ehtiyat qüvvəsini son döyüşə cəlb edib uğur qazansın. Ona görə də qələbədən sonra çox arxayınlaşmaq uğurun üstünə kölgə salar. Axı, hər şeyin bir həddi var. Həddini aşanda hər şey çox arxayınlaşmaq görsənir. Şair zabitə, əsgərə bu misralarla müraciət edir:

**Qalib gələndə arxayınlaşma,**
**Həddini aşma,**
**Sevincdən çaşma!**
**Düşmən görə bilər.**

"Unutma" şeirinin misraları, döyüşçüyə məsləhət üstündə köklənib. Şairin hissiyyatı çox güclüdür. Zəfəri qeyd etməyə baş çox qarışanda, arxayınçılıq olanda məğlubiyyət üçün şərait yaranır. Müəllifin fikrindən bu nəticəyə gəlmək olur ki, arxayınçılıq məğlubiyyətə açılan qapıdır. "Unutma" şeiri bu misralarla tamamlanır:

**Unutma məğlubiyyət**
**qonşuda yaşayır,**
**Hər an qapıdan girə bilər.**

Vətəni qoruyan döyüşçü həmişə ayıq-sayıq olmalıdı. Keşiyində dayandığı torpağı göz bəbəyi kimi qorumalıdı. Sərhədinə - qapısına həmişə elə keşik çəkməlidir ki, şair deməkən, məğlubiyyət qapıdan içəri girməsin, zəfərin ömrü uzun olsun.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında kross turniri keçirilib

***Naxçıvan-Duzdağ magistral yolunda Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında Xocalı soyqırımına həsr olunan kross qaçışı üzrə Naxçıvan şəhər turniri keçirilib.***



AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Heydər Əliyev adına Hərbi Liseyin birgə təşkil etdikləri turnirdə 100-ə yaxın kursant mübarizə aparıb.

Turnirin açılışından öncə Xocalı soyqırımında həlak olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edən federasiyanın sədr müavini İntiqam Əliyev, nazirliyin kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov 24 il əvvəl baş vermiş faciə haqqında iştirakçılara məlumatlandırıblar.

Qeyd edilib ki, turniri keçirməkdə məqsəd həm də kursantlardan ibarət yığmanı formalaşdırmaq və yüngül atletikanı muxtar respublikada gənclər arasında təbliğ etməkdir.

Üç kilometr məsafədə keçirilən kross yarışında Cəfər Quliyev bütün rəqiblərini arxada qoyaraq finiş xəttinə birinci çatıb. İlkin Əsgərov və Nurəddin Broyev isə ikinci və üçüncü olublar.

Sonda qaliblərə təşkilatçıların diplom və fəxri fərmanları, federasiyanın hədiyyələri təqdim edilib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Şahin Oruc oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Silahlar*

# Çapı 5.45 mm AK-74 və AK-74N avtomatları

***Dünya ölkələri ordularında mövcud olan atıcı silahlar təyinatlarına görə müxtəlif olur. Bu silahların sırasına daxil olan Kalaşnikov avtomatı keyfiyyət və kəmiyyət baxımından daha geniş yayılmış silah hesab edilir. Azərbaycan Silahlı Qüvvələrində də bu avtomatdan istifadə olunur.***





Silahın istehsalına 1943-cü ildə Elizarov və Seminanın işlədikləri çapı 5.45 mm olan patrona uyğun yeni silah hazırlamağa başlayır. Bu avtomat maqazini dəyişən və rejimləri çevirən (avtomat, tək-tək) mexanizmə malik olmalı idi.

Avtomat üzərində ilk ixtiraçılıq işini 1944-cü ildə bir çox orijinal konstruksiyalar layihələndirmiş Sudayev aparır. Sonralar bu avtomatın üzərində Mixail Kalaşnikov işləməyə başlayır. 1946-cı ildə o, öz konstruksiyasını nümayiş etdirir. Bu avtomat sınaqlardan keçərək yaxşı nəticələr göstərir və 1947-ci ildən orduda tətbiqi təklif olunur. Nəticədə Kalaşnikovun avtomatı Deqtyarev, Simonov, Rukavişnikov, Barışev tərəfindən hazırlanmış bütün avtomatlardan üstün sayılır. Kalaşnikov avtomatı 1948-ci ildə silahlı qüvvələrə götürülür. İkinci Dünya müharibəsi dövründə SSRİ silahlanmaya böyük üstünlük verirdi və bu sahədə böyük yenilliklər tətbiq etməkdə maraqlı idi. Beləliklə, müharibədən sonra ixtiraçı alim Mixail Kalaşnikov bu yeniliyə - AK-74 və AK-74N silahların tətbiqinə imza atdı.

Kalaşnikov avtomatları fərdi silah olub düşmənin canlı qüvvəsini məhv etmək üçün tətbiq edilir.

**AK-74 və AK-74N silahlarının taktiki-texniki xassələri:**

Lülənin çapı - 5.45 mm, avtomatın çəkisi maqazinlə - 3.6 kq, maqazinin tutumu (patron) - 30 ədəd, nişangahın məsafəsi - 1000 metr, düzünə atəş məsafəsi - 440 metr, atəş tezliyi dəqiqədə; avtomatik -100 ədəd, tək-tək - 40 ədəd, güllənin başlanğıc sürəti - 900 metr saniyə, güllənin uçma uzaqlığı - 3150 metr, lülənin uzunluğu - 415 mm, yivlərin sayı - 4 ədəd.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 109
Nüsxə 4700